**2020-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə**
**Y A D D A Ş**

**2020-ci ilin avqust ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- **Əlavə dəyər vergisinin bəyannaməsi**
- **Aksiz bəyannaməsi**
- **Yol vergisinin bəyannaməsi**
- **Mədən vergisinin bəyannaməsi**
- **Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi** və
- **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi**

2020-ci ilin **sentyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi** 2020-ci ilin **sentyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- **Xüsusi notariusların 2020-ci ilin avqust ayı üzrə hesabladığı gəlir vergisi** 2020-ci ilin **sentyabr ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2020-ci ilin 3-cü rübü üzrə bəyannamə 2020-ci ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

- **Muzdlu işlə əlaqədar 2020-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** 2020-ci ilin **sentyabr ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir ().

- **Məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə 2020-ci ilin** avqust ayı üzrə hesablanmış sığorta haqları **2020-ci ilin sentyabr ayının 15-dən** gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödənilməlidir.

Qeyd: Muzdlu işlə əlaqədar ödənilmiş vergi və məcburi dövlət sosial sığortası, həmçinin işsizlikdən sığorta üzrə ödənilmiş sığorta haqları barədə "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)" 2020-ci ilin III rübü üzrə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir.